**Şuşa mədəniyyəti**

Şuşa 2021-ci ildən Azərbaycanın mədəniyyət paytaxtıdır. Müxtəlif dövrlərdə "Kiçik Paris", "Mədəniyyət beşiyi", "Qafqazın sənət məbədi", "Şərqin konservatoriyası" adlandırılan bu şəhər təkcə təbii gözəlliyi ilə deyil, həm də əsl mədəniyyət mərkəzi olması ilə də seçilir. Şəhərin arxitekturası da mədəniyyətin, memarlığın əsas göstəricidir. Şuşada hər küçə, hər məhəllə, hər ev tarixdən bir nişanədir. Arxiv sənədlərdə şəhərdə 549 qədim bina, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, bir neçə kilsə və monastr yerləşir. Bütün bu tarixi abidələr şəhərin mədəniyyət tarixindən xəbər verir. Şəhərin mədəni cəhətdən inkişaf etməsində vaxti ilə Qarabağ xanlığının mərkəzi olması xüsusi rol oynamışdır. Şuşa paytaxt şəhəri kimi Azərbaycanın digər şəhərləri və qonşu dövlətlərlə daim mədəni, iqtisadi və siyasi əlaqələr yaratmış, daim diqqət mərkəzində olmuşdur.

Şuşa təkcə arxitektura baxımından mədəniyyət mərkəzi hesab olunmur. Bu şəhər Azərbaycan ədəbiyyatına da böyük şəxsiyyətlər bəxş edib. Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Əhməd Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli və digər yazıçı və şairlərimiz Şuşa ədəbi məktəbinin nümayəndələridir. Şuşada olan ədəbi-mədəni mühit adını çəkdiyimiz böyük qələm sahiblərinin yetişməsi, bir-birindən dəyərli sənət əsərləri yaratması üçün hər cür xüsusiyyətlərə malik idi. Bu şəhərdə ədəbiyyat və musiqi paralel inkişaf edirdi. Elə buna görə də, Şuşanın Azərbaycan musiqi tarixində də xüsusi yeri var. Şəhərin "Qafqazın konservatoriya"sı adlandırılması da təsadüfi deyil. Vaxtı ilə Şuşada yetişən xanəndələr Qafqazın hər yerində böyük nüfuz sahibi idilər. Azərbaycan tarixində özünəməxsus izi olan böyük musiqişünasların da dədə-baba yurdu Şuşa olub. Dahi Üzeyir Hacıbəyli Şuşa mühitində böyüyüb. Üzeyir bəydən savayı Sadıqcan, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Soltan Hacıbəyli, Niyazi, Bülbül və digərləri də məhz bu "konservatoriya"nın "məzunları" hesab olunur. Bu şəxsiyyətlər Şuşada digər mədəniyyət sahələrinin yaranmasında və inkişafında xüsusi rol oynamışlar. 1848-ci ildə yarandığı iddia olunan Şuşa teatrı XIX əsrin sonları, XX əsrin əvvəllərində daha da inkişaf etdi. Bir sıra məşhur teatr tamaşaları Şuşada Xurşidbanu Natəvan qızı Xanbikə xanımın evində yerləşən məktəbdə səhnələşdirildi. Təbii ki, Şuşa kimi şəhərdə teatr tamaşasının oynanılması böyük hadisə idi. Canına, qanına qədər mədəniyyətə, incəsənətə bağlı olan şuşalılar bu cür mədəni tədbirlərə böyük həvəs göstərirdilər.

Ümumimilli lider Heydər Əliyev Azərbaycana sovet dövründə rəhbərliyi zamanı (1969-1982-ci illər) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, Azərbaycan torpaqlarının bir qarışı da Ermənistana verilməmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdır. Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri hətta ötən əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini ortaya çıxarmışdılar. Ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev o zaman erməni millətçilərinin qarşısını qətiyyətlə alaraq Moskvadakı bəzi qüvvələrin

qərarlarının həyata keçirilməsinə imkan verməmişdir. Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən Heydər Əliyev bu şəhərin inkişafına çox böyük qayğı göstərmişdi. Şuşanın kurort şəhərinə çevrilməsi üçün qərarlar qəbul etmiş, genişmiqyaslı quruculuq işlərinə təkan vermişdi. 1982-ci il yanvarın 14-də ümummilli liderin iştirakı ilə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışı oldu. Bu, Heydər Əliyevin milli ədəbiyyata, tarixə, etnik mənsubiyyətə bir daha diqqətinin təzahürü idi. Ulu öndərin 29 iyul 1982-ci ildə yenidən Şuşaya gəlməsi, elm, ədəbiyyat xadimlərini, ailəsini özü ilə gətirməsi Qarabağa olan diqqətini bir daha göstərdi. İyul ayının 29-dan avqust ayının 3-nə kimi dörd gün müddətində bir sıra tədbirlərə qatılan ulu öndər avqustun 2-də Xurşidbanu Natəvanın abidəsinin açılışında iştirak etdi. Onun poeziya bayramında saatlarla görkəmli Azərbaycan və Qarabağ şairlərinin şeirlərinə qulaq asması tədbirdə iştirak edən hər bir şuşalının bu gün də xatirindədir. Həmin illər Heydər Əliyevin göstərişi ilə açılan Xankəndi Pedaqoji İnstitutu da Qarabağın elmi-mədəni mühitinin formalaşmasına, yerli əhalinin ali təhsil almasına, doğma torpağa sıx bağlanmasına əlverişli şərait yaratdı. Xalqımızın böyük oğlu Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən az sonra 1988-ci ildə Ermənistan Azərbaycana qarşı ərazi iddiaları irəli sürdü və ölkəmizə qarşı hərbi təcavüzə başladı. Şuşa şəhəri Sovet hakimiyyəti illərində də mədəniyyət mərkəzi statusunu qoruyub saxlaya bildi. Təəssüf ki, bu o qədər də uzun sürmədi. 1992-ci ilin may ayında tarixi Azərbaycan şəhərinin erməni qəsbkarları tərəfindən işğal edilməsi, təbiətin və mədəniyyətin incisi olan şəhərin əsrarəngiz mühitini dəyişdirdi. Artıq bu şəhərdə Natəvanlar, Ağaoğlular, Üzeyirlər, Bülbüllər yetişmədi.

Bu gün isə Şuşada yenə doğma insanlar məskunlaşıb. Bu şəhər sürətlə öz mədəni səviyyəsini bərpa edir. Şuşanın mədəniyyət paytaxtı elan olunması da bunun əyani sübutudur.